Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Gənclərin hərtərəfli inkişafında bölgə Olimpiya komplekslərinin rolu - problemlər də var...

## Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

**Məlumdur ki, gənclərin fiziki və mənəvi inkişafının kökündə əsasən idman durur. Azərbaycanda idmanın inkişafı ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir.**



Bu kompleks tədbirlərə idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi, o cümlədən mövcud idman qurğularının qorunub saxlanılması, yenidən qurulması, beynəlxalq standartlara uyğun yeni stadionların, Olimpiya İdman komplekslərinin tikilib istifadəyə verilməsi daxildir.

Ancaq sözügedən komlekslərlə bağlı ciddi problemlər mövcuddur. Prezident İlham Əliyev Fərid Qayıbovu gənclər və idman naziri təyin olunması ilə əlaqədar videoformatda qəbul edərkən deyib:

"İdman sahəsində buraxılan nöqsanlar da ciddi araşdırılmalıdır, ciddi təhlil aparılmalıdır. Xüsusilə Olimpiya Oyunlarına hazırlıq dövründə bəzi federasiyalarda işlər qeyri-qənaətbəxş olmuşdur və bütün federasiyalarda mövcud olan vəziyyət ciddi təhlil edilməlidir. Deməli, məşq prosesinə, təlim-məşq toplanışlarına xüsusi diqqət verilməlidir. Onu da nəzərə almalıyıq ki, son Olimpiya Oyunlarında medallar qazanmış idmançılarımız bizim təcrübəli idmançılardır. Demək olar ki, veteran idmançılardır. Onların arasında gənc nəslin nümayəndələri yoxdur və bu, çox ciddi təhlil edilməlidir. Necə ola bilər ki, nəsillər arasında artıq belə bir ara, elə bil ki, məsafə yaranır. Son illərdə bütün bölgələrdə idman obyektlərinin tikintisi geniş vüsət almışdır, təkcə bölgələrdə 50-yə yaxın idman-olimpiya kompleksimiz fəaliyyət göstərir. Onların fəaliyyəti ciddi təftiş edilməlidir, orada məşq prosesi nə səviyyədədir, uşaqlar, yeniyetmələr idman bölmələrinə gəlirmi, gəlmirmi, idmanla məşğul olmaq üçün şərait nə dərəcədədir? Çünki biz, bu infrastrukturu, bu kompleksləri o məqsədlə yaratmışıq ki, həm idmanın kütləviliyi artsın, eyni zamanda, peşəkar idmançılar yetişsin. Nəzərə alsaq ki, Tokio Olimpiya Oyunlarında gənc idmançılar medallar qazana bilmədilər, bu, çox ciddi təftiş edilməlidir. Klublardakı vəziyyətlə bağlı təhlil aparılmalıdır. Yəni, biz nəticə çıxarmalıyıq. Biz, əlbəttə, qələbələrlə fəxr edə bilərik. Ancaq çatışmazlıqlar da var və onlar aradan qaldırılmalıdır. Bu sahədə şəffaflıq tam təmin edilməlidir və bütün xoşagəlməz hallara qarşı ciddi mübarizə aparılmalıdır".

### Bölgələrdəki Olimpiya İdman Komplekslərinin fəaliyyəti araşdırılmalıdır

Göründüyü kimi, Prezident bölgələrdəki idman qurğuları ilə bağlı ciddi araşdırılmaların aparılmasını zəruri sayır və hətta bu barədə nazirə göstəriş də verib. Maraqlıdır, bu sahədə hansı işlər görülüb?

Gənclər və idman naziri Fərid Qayıbov bildirib ki, artıq komissiya yaradılıb və bölgələrdəki Olimpiya İdman Komplekslərinin fəaliyyəti araşdırılır:

"Bilirsiniz ki, 50 kompleksdən 39-u nazirliyin balansındadır. Bəzi komplekslər müasir tələblərə cavab vermir".

Nazir bildirib ki, həmin komplekslərin fəaliyyətinin genişləndirilməsi istiqamətində addımlar planlaşdırılır: "Hesab edirəm ki, həmin obyektlər yavaş-yavaş öz rolunu tapacaq. Elə rayonlarımız var ki, orada 2-3 idman növü var. Bəzi rayonlarda yeni idman növlərini inkişaf etdirmək olar".

İdman federasiyalarına nazirlərin rəhbərlik etməsinə də toxunan F.Qayıbov bunun effektiv nəticələr verdiyini vurğulayıb: "Bu təcrübə tək bizdə deyil, digər ölkələrdə də var. Bu, ictimai işdir və nazirlər üçün də maraqlıdır. Özlərini bu işə necə yönəltdiklərini görürəm. Yaxşı komanda formalaşdırıblar. Aralarında müsbət mənada rəqabət var. Son vaxtlar qazanılan nəticələr də bunu sübut edir".

### Azərbaycan idman infrastrukturu baxımından dünyanın ən öncül ölkələrindəndir

İdman mütəxəssisi Ceyhun Məmmədov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, idman yarışlarında təcrübəli, nisbətən yaşlı idmançıların daha çox fərqlənməsinin, yeni gənc nəslin az uğur qazanmasının səbəbləri var.

"Deməzdim ki, gənc nəslin idmana marağı azalıb. Əksinə, ölkədə yeniyetmə və gənclər idmana daha çox meyl etməyə başlayıblar. Düşünürəm ki, idmanda bir qədər axsamaların olmasına səbəb pandemiya vaxtı 1 ildən çox müddətdə əksər məşq proseslərinin dayandırılması oldu. Amma hazırda idmanın ayrı-ayrı növlərinə axın müşahidə edilir. Çünki uzun müddət passiv həyat keçirən yeniyetmələr, evdə qalan gənclər indi yenidən aktiv həyata qayıdırlar. Zənnimcə, federasiyaların aktivliyi artmalıdır. Federasiyalar həmin yeniyetmə və gənc idmançıların məşq toplantılarında iştirakını çoxaltmalıdır ki, onların potensialı veteran idmançılara gəlib çatsın".

Digər idman eksperti Kənan Məstəliyev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, dövlət başçısı idmanımızda olan bütün nöqsanlardan xəbərdardı və işinin çox olmasına baxmayaraq, prosesləri yaxından, diqqətlə izləyir: "Hətta idman infrastrukturunda olan hadisələrdən belə xəbərdardı. Biz bilirik ki, Prezident daima idmançılarımıza və idmanın inkişafına böyük qayğı və diqqət nümayiş etdirib. Son illərdə görürük ki, həmin diqqətin əvəzi lazımi şəkildə geri qaytarılmır. Prezidentin adından səslənən bu iradlar idman cameəsi üçün olduqca mənfi hal sayılır. Azərbaycan idman infrastrukturu baxımından dünyanın ən öncül ölkələrindəndir. Adambaşına düşən olimpiya komplekslərinin sayına görə bəlkə də dünyada ən birincidir. Hətta bölgələrimizdə idmanın inkişafı üçün maksimal dərəcədə şərait yaradılıb. Sadəcə, həmin idman mərkəzlərinin təyinatı üzrə işlədilməməsi danılmaz faktdır. Biz də bilirdik ki, həmin komplekslərin çoxunda idmandan kənar bütün işlərlə məşğul olurlar. İlk dəfədir ki, bu neqativlik ölkə başçısının dilindən səsləndi. Ümid edirəm ki, yeni nazir ölkə başçısını narahat edən bu neqativliklərin aradan qaldırılması istiqamətində əlindən gələni edəcək".

*Məhəmmədəli QƏRİBLİ*